# GƏLİR OLMADIQDA XƏRCLƏRİN UÇOTU

Bəzən belə olur ki, müəssisə hər hansı bir dövr ərzində gəlir əldə etmir, lakin müəyyən xərclər çəkir. Bu xərclərin mühasibat uçotunda əks etdirilmə qaydasını və mənfəət vergisi və əlavə dəyər vergisi məqsədləri üçün bu xərclərin necə nəzərə alındığını nəzərdən keçirək.

Bu cür problemlə, ilk növbədə, yeni fəaliyyətə başlayan müəssisələr qarşılaşırlar. Fəaliyyət başlamaq üçün onlar əvvəlcə müvafiq bina və avadanlıq əldə etməli, xammal və material almalı, işçiləri işə qəbul etməlidirlər. Vergi Məcəlləsinin 108-ci maddəsinə əsasən bu fəsilə uyğun olaraq gəlirdən çıxılmayan xərclərdən başqa gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər gəlirdən çıxılır. Xərclər isə müəssisənin hansı metodu, hesablama və yaxud kassa metodunu istifadə etməsindən asılı olaraq tanınır. Beləliklə, əgər müəssisənin hesabat ilində gəliri olmayıbsa, onun xərcləri tanımağa ixtiyarı yoxdur.

Gəlir olmadıqda ƏDV-ni büdcə ilə əvəzləşdirmək olarmı?

Malsatanlara (podradçılara) ödənilmiş ƏDV məbləğini büdcə ilə əvəzləşdirmək üçün Vergi Məcəlləsinin 175-ci maddəsində təsbit edilmiş şərtlərin yerinə yetirilməsi tələb olunur. Bu şərtlər aşağıdakılardır:

- müəssisə malsatan və ya podradçı tərəfindən verilmiş vergi hesab-fakturasına (idxal zamanı - yük gömrük bəyannaməsinə) malik olmalıdır;
- malsatanın (podradçının) hesabı nağdsız qaydada ödənilməlidir (idxal zamanı - gömrük orqanlarına ƏDV məbləği ödənilməlidir);
- alınmış mallar (xidmətlər) müəssisənin sahibkarlıq (kommersiya) fəaliyyətində istifadə edilmək üçün nəzərdə tutulmalıdır.

Yuxarıda göstərilən şərtlər yerinə yetirildikdə müəssisə malsatanlara, podradçılara və ya gömrük orqanlarına ödədiyi ƏDV məbləğini büdcə ilə əvəzləşdirə bilər. Bu zaman müəssisənin hesabat dövründə gəlir əldə edib-etmədiyinin heç bir əhəmiyyəti yoxdur.

### Xərclər mühasibat uçotunda necə əks etdirilir

Müəssisənin gəlir əldə edib-etmədiyindən asılı olmayaraq xərclər mühasibat uçotunda həmin xərclərin çəkildiyi hesabat dövründə uçota alınmalıdır. Xərclərin mühasibat uçotunda əks etdirilməsinin konkret qaydası isə çəkilmiş xərclərin növündən asılı olaraq müəyyən edilir. Məhsul istehsal edən, lakin hələlik gəlir əldə etməyən müəssisələrdə və yeni yaranmış və hələ fəaliyyətə başlamamış müəssisələrdə xərclərin uçota alınma qaydasını nəzərdən keçirək.

Xammal və material xərcləri, əsas istehsal işçilərinin əmək haqqı xərcləri 20 saylı «Əsas istehsal» hesabında uçota alınır. Əsas vəsaitlərə hesablanmış amortizasiya məbləği də bu hesabda uçota alınır. Qeyd etmək lazımdır ki, amortizasiya müəssisənin fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq hesablanır və aid olduğu dövrdə uçotda əks etdirilir. Ümumtəsərrüfat xərcləri əvvəlcə 26 saylı «Ümumtəsərrüfat xərcləri» hesabında uçota alınır və sonradan 20 saylı «Əsas istehsalat» hesabına silinir.

**Misal.** A müəssisəsi elektrik mallarının istehsalı ilə məşğul olur. 2018-ci ilin may ayında müəssisə gəlir əldə etməmişdir. Bununla belə həmin ayda müəssisənin aşağıdakı xərcləri olmuşdur:

- məhsul istehsalı üçün 12.000 manat dəyərində material sərf edilmişdir;





- əsas istehsal işçilərinə 7.000 manat məbləğində əmək haqqı hesablanmışdır;
- idarəetmə aparatı işçilərinə 1.500 manat məbləğində əmək haqqı hesablanmışdır.

Bundan başqa, həmin ayda əsas vəsaitlərə 2.200 min manat məbləğində amortizasiya hesablanmışdır. A müəssisəsinin mühasibat uçotunda may ayında aşağıdakı mühasibat yazılışları edilir (manatla):

| | | |
|---|---|---|
| **Dt 20, Kt 10** | 12.000 | məhsul istehsalına material sərf edilmişdir; |
| **Dt 20, Kt 70** | 7.000 | əsas istehsal işçilərinə əmək haqqı hesablanmışdır; |
| **Dt20,Kt02** | 2.200 | əsas vəsaitlərə amortizasiya hesablanmışdır; |
| **Dt 26, Kt 70** | 1.500 | idarəetmə apparatı işçilərinə əmək haqqı hesablanmışdır; |
| **Dt 20, Kt 26** | 1.500 | ümumtəsərrüfat xərcləri istehsal xərclərinə silinmişdir. |

Yeni yaranmış müəssisələrdə, bir qayda olaraq, idarəetmə aparatının saxlanılması xərcləri olur ki, onlar da 26 saylı «Ümumtəsərrüfat xərcləri» hesabında uçota alınır. Lakin tədricən belə müəssisələrdə digər xərclər də yaranır. Məsələn, onlar əsas vəsait alırlar və bu əsas vəsaitlərə amortizasiya hesablamağa başlayırlar, işçiləri işə qəbul edib əmək haqqı ödəməyə başlayırlar və s. Bu xərcləri birbaşa 20 saylı «Əsas istehsalat» hesabında uçota almaq olmaz, çünki bu hesabda bilavasitə "məhsul istehsalı ilə bağlı olan xərcər uçota alınır. Bizim nəzərdən keçirdiyimiz halda isə müəssisə hələ məhsul istehsalına başlamamışdır. Buna görə də məhsul istehsalına başalayanadək çəkilmiş xərcləri (o cümlədən, ümumtəsərrüfat xərclərini də) 31 saylı «Gələcək dövrün xərcləri» hesabında uçota almaq lazımdır. Sonradan, yəni müəssisə məhsul istehsalına başladıqdan sonra bu xərclər 31 saylı «Gələcək dövrün xərcləri» hesabının kreditindən 20 saylı «Əsas istehsalat» hesabının debetinə silinir.

**Misal.** B müəssisəsi 2017-ci ilin iyulunda dövlət qeydiyyatından keçmişdir. Müəssisə mebel istehsalı ilə məşğul olmağa hazırlaşır. Faktiki olaraq məhsul istehsalına müəssisə 2018-ci ilin fevralında başlamışdır. 2017-ci ilin avqustunda müəssisə dəyəri 236.000 manat (o cümlədən ƏDV - 36.000 manat) olan ağac emalı avadanlığı almışdır. 2017-ci il ərzində idarəetmə aparatı işçilərinə 10.000 manat məbləğində əmək haqqı hesablanmışdır. Eyni zamanda, həmin il üçün 50.000 manat məbləğində amortizasiya hesablanmışdır.

B müəssisəsinin mühasibat uçotunda 2017-ci ildə aşağıdakı mühasibat yazılışları edilir (manatla):

| | | |
|---|---|---|
| **Dt 08, Kt 60** | 200.000 | malsatandan avadanlıq daxil olmuşdur; |
| **Dt 19, K 60** | 36.000 | malsatana ödəniləcək ƏDV uçota alınmışdır; |
| **Dt 60, K 51** | 240.000 | maisatanın hesabı ödənilmişdir; |
| **Dt01,Kt08** | 200.000 | alınmış avadanlıq əsas vəsait kimi uçota alınmışdır; |
| **Dt 68 (ƏDV), Kt 19** | 36.000 | malsatana ödənilmiş ƏDV büdcə ilə əvəzləşdirilmişdir; |
| **Dt 26, K 70** | 10.000 | idarəetmə aparatı işçilərinə əmək haqqı hesablanmışdır; |
| **Dt 31, Kt26** | 10.000 | ümumtəsərrüfat xərcləri gələcək dövrün xərcləri kimi uçota alınmışdır; |
| **Dt 31,K 02** | 50.000 | əsas vəsaitlərə amortizasiya hesablanmışdır; |

2018-ci ildə, yeni müəssisə fəaliyyətə başladıqdan sonra mühasibat uçotunda aşağıdakı yazılış edilir:

**Dt 20, Kt 31** 60.000 (10 000 + 50.000) əvvəllər gələcək dövrün xərcləri kimi uçota alınmış xərclər istehsal xərclərinə



Azərbaycan Milli Kitabxanası